3333

**Ünvan: Az-101, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6**
**Tel: (+99412) 437 10 86    Fax: (+99412) 492 59 40**
**E-mail: unec@unec.edu.az**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

K-Q TSE-ISO-EN 9000

TSE EN ISO 9001:2008 keyfiyyəti idarəetmə sistemi



# BAKALAVR və MAGİSTRANTLAR ÜÇÜN YADDAŞ KİTABÇASI

## əyani/qiyabi

www.unec.edu.az
www.kabinet.unec.edu.az

– İnformasiya texnologiyaları
– Sistem mühəndisliyi

**Fakültə:** Rus İqtisad Məktəbi **(Rus dilində tədris)**

*İxtisaslar:*

– Maliyyə
– Mühasibat uçotu və audit
– İqtisadiyyat
– Sənayenin təşkili və idarə olunması
– Dünya iqtisadiyyatı
– Biznesin idarə edilməsi
– Menecment
– Marketinq
– Kommersiya

**III tədris binası**

**Ünvan:** Bakı şəhəri, H.Əliyev küç., 135 A, (Avrasiya Universitetinin binası) Yaxın metro stansiya: Gənclik, N.Nərimanov)

**Fakültə:** Əmtəəşünaslıq

*İxtisaslar:*

– İstehlak mallarının ekspertizası və marketinqi
– Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi

**IV tədris binası**

**Ünvan:** Bakı şəhəri, Abbas Səhhət küç., 45 A (1 saylı Şəhər Kliniki Xəstəxanasının yaxınlığı)

**Fakültə:** Türk Dünyası İşlətmə (TUDİFAK)

*İxtisaslar:*

– Beynəlxalq münasibətlər
– Maliyyə
– İqtisadiyyat
– Biznesin idarə edilməsi

**Fakültə:** Biznes və menecment

*İxtisaslar:*

– Biznesin idarə edilməsi
– Menecment
– Marketinq
– Kommersiya
– Dövlət və bələdiyyə idarəetməsi

**DİQQƏT!**

**Yaddaş kitabçasında qeyd olunan qaydalara dəyişikliklər ola bilər. Ən son məlumatları UNEC-in rəsmi internet səhifəsindən və ya fakültə dekanlığından əldə edə bilərsiniz.**



TSE EN ISO 9001:2008
keyfiyyəti idarəetmə sistemi

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

# BAKALAVR və MAGİSTRANTLAR ÜÇÜN YADDAŞ KİTABÇASI

əyani/qiyabi

www.unec.edu.az
www.kabinet.unec.edu.az

**BAKI-2017**



*UNEC-ə qəbul olunan tələbə və magistrantlar! UNEC-in dəyərli ailəsinə xoş gəldiniz!*

*Uzun zamandır zəhmət çəkdiyiniz, gələcəyiniz üçün əzmlə çalışdığınız yolda növbəti uğurunuzla tələbə adını qazandınız. Bu münasibətlə Sizi və daimi dəstəkçiniz olan dəyərli valideynlərinizi səmimi qəlbdən təbrik edirəm.*

*Dünya səviyyəli universitet olmaq missiyasını seçən universitetimiz günbəgün bu hədəfə doğru irəliləməkdədir. Bu yoldakı uğurun qayəsində məhz Siz dayanırsınız.*

*Peşəkar kadr kimi yetişməyiniz üçün universitetimizin bütün heyəti təhsiliniz boyunca Sizə müasir bilik və təcrübələrini çatdırmaq üçün əlindən gələni əsirgəməyəcək, hər bir addımınızda yanınızda olacaqdır. Bilik xəzinəsindən faydalanacaq tələbələrimiz aldıqları təhsillə, həyatlarının hər mərhələsində öncül və ilklərə imza atan şəxs kimi formalaşacağına əminəm.*

*İnnovativ, proqressiv, hər kəsin fikrini diqqətə alan, yeniliklərə meyilli böyük UNEC ailəsinin uğurlarında Sizin də payınızın olacağına inanıram. Bu yolda birgə addımlamaqdan, Sizə fəxrlə xidmət etməkdən qürur hissi duyuruq.*

*UNEC-i seçdiyinizə görə hər birinizə təşəkkür edir, uğur dolu universitet həyatı arzulayır və bir daha hər birinizi təbrik edirəm!*

***prof. Ədalət Muradov***
***Rektor***



UNEC-in fakültələr üzrə ixtisasları və onların yerləşdiyi tədris binaları

I tədrisbinası

**Ünvan:** Bakı şəhəri, İstiqlaliyyət küç., 6. Yaxın metro stansiya: İçərişəhər

**Fakültə:** Beynəlxalq İqtisadiyyat Məktəbi **(İngilis dilində tədris)**

*İxtisaslar:*

– Maliyyə
– Mühasibat uçotu və audit
– Dünya iqtisadiyyatı
– İqtisadiyyat
– Biznesin idarə edilməsi

**Fakültə:** Maliyyə və Mühasibat

*İxtisaslar:*

– Maliyyə
– Mühasibat uçotu və audit
– Statistika

**London Universiteti / London İqtisadiyyat Məktəbi**

SABAH Mərkəzi

Distant, qiyabi və əlavə təhsil mərkəzi

**II tədrisbinası**

**Ünvan:** Bakı şəhəri, Həsən Əliyev küç., 135 (5 saylı şəhər kliniki xəstəxanasının yaxınlığı) Yaxın metro stansiya: Gənclik, N.Nərimanov)

**Fakültə:** İqtisadiyyat

*İxtisaslar:*

– İqtisadiyyat
– Sənayenin təşkili və idarə olunması
– Ekologiya
– Dünya iqtisadiyyatı
– Beynəlxalq münasibətlər

**Fakültə:** Texnologiya və dizayn

*İxtisaslar:*

– Dizayn
_ Texnoloji maşın və avadanlıqlar mühəndisliyi
_ Qida məhsulları mühəndisliyi
_ Çoxişlənən malların texnologiyası mühəndisliyi

Tələbə təhsil aldığı müddətdə universitetin digər ixtisas və ixtisaslaşmaların tədris planlarından ödənişli əsaslarla istənilən qədər fənn seçə və dinləyə bilər.

Tələbə Dövlət Təhsil Standartları ilə müəyyən olunmuş müddətdə tələbə olunan krediti yığa bilmədiyi halda universitetdən xaric olunmur. Tələb kontingentdə saxlanılmaqla təhsilini yalnız ödənişli əsaslarla davam etdirə bilər. Bu halda tələbə bütün imtiyazlarını (hərbi xidmətdən möhlət, dövlət hesabına təhsil, təqaüd və s.) itirir.

**Fənləri daha dərindən mənimsəmək üçün nə etmək lazımdır?**

- yalnız tələbə biletini təqdim etməklə universitetin kitabxanasına üzv olmaq;
- oxu zallarının imkanlarından istifadə etmək;
- beynəlxalq məlumat bazalarından yararlanmaq;
- elekton kitabxananın imkanlarından istifadə etmək;
- müəllim tərəfindən şəxsi kabinetlərə yüklənmiş əlavə materialları oxumaq.

**İxtiyari suallarla bağlı hara və kimə müraciət etməliyəm?**

Sizi maraqlandıran bu və ya digər suallarla bağlı tyutorlara müraciət edə, yaxud UNEC- in "Qaynar xətt" xidməti ilə əlaqə saxlaya bilərsiniz: - **146-1-3**



**Bu kitabçadan öyrənəcəkləriniz**


1. Kredit sisteminin xüsusiyyətləri
2. Elektron universitet modeli (EDUMAN)
3. Akademik təqvim
4. Tələbə biletimi necə əldə edə bilərəm?
5. Fərdi tədris planı nədir və necə tərtib olunur?
6. Kredit sistemində tədrisin təşkili
7. Kredit sistemində tələbənin biliyi necə qiymətləndirilir?
   – fənn üzrə davamiyyətə görə balların hesablanması
   – sərbəst işlərə görə balların hesablanması
   – kollokviumlara görə balların hesablanması
   – seminar/məşğələ/laboratoriya dərslərinə görə balların hesablanması
8. İmtahan sessiyasının təşkili və keçirilməsi qaydaları
9. ÜOMG nədir və necə hesablanır?
10. Təqaüdlər necə müəyyənləşdirilir?
11. "TOP 15" təqaüdü necə hesablanır?
12. Təcrübələr nə vaxt və necə təşkil olunur?
13. Yekun Dövlət Attestasiyası nədir və buraxılış işləri necə qiymətləndirilir?
14. Mübadilə proqramları
15. Yay semestrinin təşkili
16. Tələbənin hüquq və vəzifələri
17. Fənləri daha dərindən mənimsəmək üçün nə etmək lazımdır?
18. İxtiyari suallarla bağlı hara və kimə müraciət etməliyəm?
19. UNEC-in fakültələr üzrə ixtisasları və onların yerləşdiyi tədris binaları

## Kredit sisteminin xüsusiyyətləri

Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 saylı qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavryat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili qaydaları” ilə tənzimlənir.

Kredit – fənnin mənimsənilməsinə ayrılan vaxtın ölçü vahididir. Cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə görə fənn üzrə müvəffəq qiymət almış tələbə həmin fəndən kredit qazanmış hesab olunur. Kredit sistemi əsasında təşkil olunmuş tədris prosesi aşağıdakı xüsusiyyətlərlə səciyyələndirilir:

- hər bir tələbənin fərdi tədris planının olması və onların bu planın tərtib edilməsində iştirak etməsi;
- ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq, fənlərin, müəllimlərin və akademik məsləhətçilərin (tyutorların) seçiminin sərbəstliyinin təmin edilməsi;
- tədris prosesinə tyutorların cəlb olunması;
- tələbəyə sərbəst iş üçün şəraitin yaradılması;
- biliyin qiymətləndirilməsində çoxballı sistemin tətbiq edilməsi;
- hər semestrdə tədris qruplarının fənlər üzrə formalaşdırılması;
- tələbə və müəllimlərin mobilliyinin təmin olunması;
- təhsilalma müddətinin tələbənin nailiyyətindən asılı olması;
- fakültə, kafedra, ixtisas, fənn, müəllim və tələbələrin kodlaşdırılması.

## UNEC Elektron Universitet Modeli (EDUMAN)

UNEC Elektron Universitet Modeli (EDUMAN) kredit sisteminin effektiv şəkildə tətbiq edilməsi üçün qurulmuş elektron platformadır. Bu platforma vasitəsi ilə UNEC tələbələri www.kabinet.unec.edu.az keçidinə daxil olmaqla aşağıdakı məlumatları əldə edə bilərlər:

- dərs cədvəlləri;
- tədris materialları (fənlərin sillabusları, mühazirə mətnləri, təqdimatlar və imtahan sualları);
- elektron jurnallar;
- fərdi tədris planları;
- kollokvium və imtahan cədvəlləri;
- kollokvium və imtahanlar üçün giriş kodu;
- apellyasiya müraciətləri;
- məmnunluq anketi və s.

Tələbə EDUMAN sisteminə daxil olmaq üçün istifadəçi adı və şifrəsini fakültə tyutorlarından əldə edə bilər.



Yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditin ümumi həcmi 10-dan artıq olmamalıdır.

Yay semestri üzrə imtahanlar növbəti semestrin başlanmasına 2 həftə qalanadək başa çatdırılır.

Yay semestrində üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələr üçün növbəti semestrin başlanğıcına qədər bir dəfə imtahan təşkil olunur.

Sessiya imtahanlarında müvəffəq qiymət alınan fənn üzrə qiyməti yüksəltmək məqsədi ilə tələbəyə yenidən imtahan verməyə icazə verilmir. O, qiyməti yüksəltmək üçün yay semestrində həmin fənni yenidən dinləməklə imtahan verə bilər. Tələbə öz məqsədinə nail olmadıqda, onun əvvəl qazanmış olduğu bal qüvvədə qalır.

Müvafiq qaydaların tələblərinə uyğun olaraq, imtahana buraxılmayan tələbə semestrdə fənn (fənlər) üzrə müəyyən edilmiş dərslərin 50 faizindən çoxunda iştirak etdiyi halda o, həmin fənni (fənləri) yay semestrində iştirak etmək hüququna malikdir.

Yay semestrində tələbənin fənn üzrə bir kreditinin ödənişi müvafiq qaydaların tələblərinə uyğun olaraq müəyyən edilir.

Yay semestrində fənn üzrə qrupda tələbələrin sayını isə ali təhsil müəssisəsi maliyyə imkanlarını nəzərə alaraq müəyyənləşdirir.

Yay semestrinə müəllimlər könüllü surətdə cəlb olunurlar. Bu zaman müəllimin fəaliyyətinin ödəniş məbləği saathesabı qaydada həyata keçirilir. Bundan əlavə müəllimlərə fənn üzrə qrupdan əldə olunan vəsaitin hesabına əlavə ödəniş verilir. Həmin ödənişin məbləği ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

Yay semestrində əldə olunan vəsaitdən, ali təhsil müəssisəsinin rektorunun əmri ilə bu işə cəlb olunan digər əməkdaşların əməkhaqları ödənilir.

## Tələbənin hüquq və vəzifələri

Tələbələr ali təhsil müəssisəsində kredit sisteminin tətbiqi ilə bağlı qaydalarla və tədris prosesinin təşkili barədə normative sənədlərlə tanış olmaq hüququna malikdirlər.

Tələbələr fərdi tədris planlarını müəyyənləşdirərək Nazirlər Kabinetinin 348 saylı 24 dekabr 2013-cü il qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavryat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na riayət etməlidirlər.

Təhsil zamanı tələbə fərdi tədris planına ciddi riayət etməklə tədris olunan fənləri mənimsəməyə borcludur.

Tələbə ali təhsil müəssisəsinin daxili intizam qaydalarını pozduğu halda ona müvafiq qaydada intizam tənbehi tədbirləri tətbiq edilir.

Tələbə bir fənni ödənişli əsaslarla istənilən qədər seçə və dinləyə bilər.

- Niyyət məktubu (Motivation letter) ( təhsil almaq istədiyi universitet üçün).

Mevlana mübadılə proqramı çərçivəsində UNEC tələbələri Türkiyə Respublikasının 40-dan çox ali təhsil müəssisəsində bir və ya iki semestrlik təqaüdlü təhsil ala bilərlər.

Mevlana mübadilə proqramının əsas şərtləri aşağıdakılardır:

- təhsil alacağı xarici universitetə təhsil haqqı ödənilmir;
- bir semestr ərzində tələbələrə aylıq təqaüd verilir;
- bir və ya iki semestr təhsil almaq imkanı;
- yerlər üzrə müsabiqə keçirilir;
- tələbələrin orta balı (ÜÖMG) 75-dən yuxarı olmalıdır;
- təhsil verilən xarici dildə sərbəst danlşıq qabiliyyəti (ingilis dili B1/B2 səviyyəsində və türk dili)/ dil sertifikatı tələb oluna bilər;
- Yalnız I, II və III kurslarda təhsil alan tələbələr və I kurs magistratura pilləsində təhsila alanlar müraciət edə bilərlər.

Müraciət tarixləri: hər tədris ilinin fevral-mart aylarında

Tələb olunan sənədlər:

- Transkript
- CV (Azərbaycan və ingilis dillərində)
- Pasport və ya şəxsiyyət vəsiqəsi.

## Yay semestrinin təşkili

Yay semestri könüllülük prinsipi ilə ödənişli əsaslarla həyata keçirilir. O, aşağıdakı məqsədlərlə təşkil olunur:

- akademik borcların ləğv edilməsi;
- fənlərin prerekvizitliyi gözlənilməklə, humanitar fənlər bölümünə daxil olan və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlərin kreditlərinin qazanılması;
- müvəffəq qiymət alınmış fənn üzrə qiymətin yüksəldilməsi;
- ali təhsil müəssisəsinin təklif etdiyi ayrı-ayrı fənlər üzrə digər ali təhsil müəssisəsi tələbələrinə müvafiq kreditlər qazanmasına şəraitin yaradılması.

Yay semestri yaz semestri başa çatdıqdan sonra təşkil olunur və onun başlanma müddəti ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. Yay semestrinin (nəzəri təlim və imtahanlar) müddəti 6 həftədir. İmtahan müddəti 1 həftədən artıq olmamaqla, yay semestrinin sonuncu həftəsində təşkil edilir.



## Akademik təqvim

Hər tədris ilinin əvvəlində UNEC-in rəsmi internet səhifəsində akademik təqvim (http://unec.edu.az/akademik-teqvim/) elan olunur. Akademik təqvimdə aşağıdakı məlumatlar qeyd olunur:

- fərdi tədris planlarının tərtib edilməsi və dəyişikliklərin edilməsi (alt qruplara yazılma və s.) tarixləri;
- semestrin başlama və bitmə tarixləri;
- təhsil haqlarının ödənməsi tarixləri;
- sərbəst işlərin təqdim edilməsi tarixləri;
- kollokvium və imtahanların tarixləri;
- tələbələrin təcrübələrinin başlanma və bitmə tarixləri;
- Yekun Dövlət Attestasiyasının tarixləri;
- yay semestrinin başlama və bitmə tarixləri və s.

## Tələbə biletimi necə əldə edə bilərəm?

UNEC-ə qəbul olunanlara tələbə biletləri dərs başlanan gün – sentyabrın 15-də fakültə nümayəndələri tərəfindən verilir. Tələbə biletini yararsız hala salan, eləcə də hər hansı bir digər səbəbdən təkrar və ya yenisini almaq istəyən tələbə öz fakültə dekanlığına müraciət etməlidir. Onu itirən tələbə isə bu barədə respublika qəzetlərindən birində elan verdikdən sonra öz fakültə dekanlığına müraciət etməlidir.

## Fərdi tədris planı (FTP) nədir və o, necə tərtib olunur?

Hər tədris ili üçün tələbələrin fərdi tədris planları (FTP) hazırlanır. Tələbələrin FTP-ləri müəyyən olunmuş forma üzrə onların özləri tərəfindən tərtib olunur. Bu zaman tyutorların köməyindən də istifadə oluna bilər. Tələbə FTP-ləri tərtib edilərkən onlara həm fənn, həm də yüksək ixtisaslı müəllimlərin seçilməsi imkanı yaradılır. FTP-lər iki nüsxədə tərtib edilir, bir nüsxəsi tələbədə, digəri isə fakültədə saxlanılır.

Universitetə yeni qəbul olunan tələbələrə birinci tədris ili üçün fakültə tərəfindən FTP hazırlanır və sentyabrın 10-na qədər tələbələrə təqdim edilir.

Növbəti tədris ilində tələbələr ixtisasın (ixtisaslaşmalar) tədris planı əsasında öz FTP-ni hazırlayır, zəruri hallarda tyutor ilə bu barədə məsləhətləşmələr aparır, onu imzalayır, tarixi qeyd edir (yay semestrində iştirak edib-etməməsindən asılı olmayaraq) və iyul ayının 5-dən 15- nə qədər fakültəyə təqdim edir. Növbəti tədris ili üçün tələbənin FTP-si tərtib olunarkən, buraya ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir. Akademik borc yaranan fənn (fənlər) müvafiq semestrdə tədris olunmadığı və ya həmin fənn (fənlər) üzrə qrup yaradılmadığı halda bu tələb istisna edilir.

Tələbə sentyabrın 10-na qədər FTP-nə öz düzəlişini edə bilər. Sonradan FTP-də heç bir dəyişiklik aparılmasına icazə verilmir. Yalnız payız semestrində akademik borcu yaranan tələbələr qış tətilinin ilk həftəsində FTP-də müvafiq düzəliş edə bilərlər.

**Kredit sistemində tədrisin təşkili**

Tədris ili iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 həftədən çox olmayaraq yay semestri də təşkil oluna bilər.

Ali təhsilin hər iki səviyyəsində (bakalavr/magistratura) əyani təhsilalma forması üzrə tədris ili 40 həftədir. Hər semestr 20 həftədən (o cümlədən, 5 həftə imtahan sessiyası) ibarətdir. Bir semestrə 30 kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadan kənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan kənar ümumi yükünün həcmi 45 saatdır. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir (yay semestri istisna olmaqla). Buraxılış işinin, magistr dissertasiyasının hazırlanmasına və müdafiəsinə, eləcə də buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir.

Qiyabi təhsilalma forması üzrə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən, 1 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilir.

İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240-300 kredit, magistraturada təhsilin normativ müddəti 1,5 il olduğu halda 90, 2 il olduğu halda isə 120 kredit müəyyənləşdirilir. Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir.

Dövlət sifarişi ilə təhsil alan və bütün təhsil müddətində ayrı-ayrı fənlərdən göstəricisi 81-100 bal arasında olan tələbələrə əlavə ödəniş etmədən, akademik borcu olanlar üçün isə ödənişli əsaslarla, hər semestrdə cəmi 10 kreditdən çox olmamaq şərtilə fənn (fənlər) də seçməyə icazə verilir. Bu halda 30-dan artıq kreditə görə təhsil haqqının ödənilməsi müfaviq qaydalara uyğun olaraq həyata keçirilir.

Tələbəyə bakalavriat səviyyəsində gələcək peşə fəaliyyətində istifadə etməsi və ya oxşar ixtisas üzrə (təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 faizi eyni olduğu halda) əlavə təhsil alması məqsədi ilə, ödənişli əsaslarla müvafiq ixtisasların fənnini (fənlərini) seçmək hüququ da verilir. Bu şərtlərlə əlavə təhsil alanlara həmin ixtisas üzrə bakalavr dərəcəsi və müvafiq diplom verilir.

Fənn üzrə semestr göstəricilərinə və imtahanların nəticələrinə görə müvəffəq qiymət almış tələbə həmin fəndən kreditləri qazanmış hesab edilir. Əks təqdirdə, tələbə bu fəndən kreditləri qazanmır və onun həmin fənn üzrə akademik borcu yaranır. Akademik borcu yaranan tələbə həmin fənni (fənləri) yenidən dinləməlidir. Bu zaman tələbə həmin fəndən (fənlərdən) dərslərdə iştirak etməklə, onun (onların) mənimsənilməsinə qoyulan tələbləri tam yerinə yetirməlidir.



Non-eramsus mübadilə proqramı çərçivəsində tələbələr aşağıdakı universitetlərdə oxumaq üçün müraciət edə bilərlər:

- Fransanın Montpellier Universiteti
- Almaniyanın Siegen Universiteti
- Litvanın Mikolos Romeris Universiteti
- Koreyanın Solbridge Beynəlxalq Biznes Məktəbi

Non-eramsus mübadilə proqramında iştirakla bağlı müraciət tarixləri aşağıdakı kimidir:

Payız semestri üçün son müraciət tarixi - 1 aprel

Yaz semestri üçün son müraciət tarixi - 1 noyabr

Tələb olunan sənədlər:

- Transkript
- CV (Azərbaycan və ingilis dillərində)
- Pasport və ya şəxsiyyət vəsiqəsi

"Erasmus+" mübadilə proqramı çərçivəsində Avropa ölkələrinin ali təhsil müəssisələrində bir semestrlik təqaüdlü təhsil almaq imkanı yaradılır. Tələbə təklif olunan yerlər üzrə müvafiq şərtlərə cavab verərsə təklif olunan ölkə və universitetlərdən seçim edərək müsabiqədə iştirak edə bilər.

"Erasmus+" proqramının qalibləri təhsil pilləsində bu proqramda yalnız bir dəfə iştirak edə bilər.

Universitetlərin siyahısı və universitetlər üzrə yerlər haqqında məlumat yeniləndikcə universitet saytının elanlar və mübadilə proqramları bölümündə yerləşdirilir.

"Erasmus+" proqramının əsas şərtləri aşağıdakılardır:

- xarici universitetə təhsil haqqı ödənilmir;
- tələbələrin yol xərcləri ödənilir;
- bir semestr ərzində tələbələrə aylıq təqaüd verilir (təqaüdün miqdarı ölkə üzrə fərqlənir);
- bir semestr təhsil almaq imkanı təklif edilir;
- yerlər üzrə müsabiqə keçirilir;
- tələbələrin orta balı (ÜÖMG) – 80-dən yuxarı olmalıdır;
- təhsil verilən xarici dildə sərbəst danlşıq qabiliyyəti (ingilis dili B2/C1 səviyyəsində) / dil setifikatı tələb oluna bilər;
- Yalnız I, II və III kurslarda təhsil alan tələbələr iştirak edə bilər.

Müraciət tarixləri təklif olunan proqramın elanında göstərilir.

Əsas tələb olunan sənədlər:

- Transkript
- CV (Azərbaycan və ingilis dillərində);
- pasport və ya şəxsiyyət vəsiqəsi;

Tələbənin cari semestrdə akademik borcu qaldığı halda o, növbəti semestrdə təqaüd müsabiqəsində iştirak hüququnu itirir. Əgər həmin tələbə cari semestrdə götürdüyü bütün fənlərdən kreditləri qazanarsa, onun təqaüd müsabiqəsində iştirak hüququ yenidən yaranır.

**“TOP 15” təqaüdü nədir və necə hesablanır?**

UNEC Elmi Şurasının qərarı ilə hər semestrdə imtahan sessiyasının nəticələrinə görə hər kurs üzrə ÜOMG-si ən yüksək olan 15 tələbə rektorun rəğbətləndirmə siyahısına daxil edilir və onlara məqsədli təqaüd (Əlaçı təqaüdü həcmində) təyin olunur.

“TOP 15” təqaüdü dövlət büdcəsi hesabına verilən təqaüdə əlavə olaraq, UNEC-in şəxsi vəsaiti hesabına ödənilməkdədir.

“TOP 15” təqaüdü bakalavr səviyyəsi üzrə hər kurs üçün ixtisas fərqi olmadan müəyyən edilir.

UNEC Elmi Şurasının qərarı əsasında 600 və daha yüksək bal toplayan I kurs tələbələrinə, yalnız birinci semester ərzində 100 manat məbləğində xüsusi vəsait hesabına əlavə təqaüd verilir.

**Təcrübələrin nəticələrinə görə balların hesablanması necə aparılır?**

Təcrübə tələbənin təhsil müddəti ərzində əldə etdiyi nəzəri biliklərin praktik tətbiqini əks etdirən attetasiya formasıdır. Tədris planında nəzərdə tutulmuş təcrübənin nəticələrinə görə balların yarısı təcrübəyə davamiyyətinə görə, digər yarısı isə təcrübə üzrə hesabatın hazırlanması və müvafiq qaydada müdafiəsinə görə verilir.

Təcrübəyə davamiyyətinə görə tələbənin topladığı yekun bal tələbənin təcrübədə iştirak etdiyi saatların miqdarının davamiyyətə ayrılan maksimum (50 bal) vurularaq təcrübəyə ayrılmış saatların miqdarına bölünməklə hesablanır.

**Yekun Dövlət Attestasiyası nədir və buraxılış işlərinə görə ballar necə hesablanır?**

Ali təhsilin son pilləsi Yekun Dövlət Attestasiyasıdır (YDA). Yekun Dövlət Attestasiyası Dövlət imtahanı və ya Buraxılış işinin hazırlanması və müdafiəsi formasında həyata keçirilir. Bəzi ixtisaslar istisna olmaqla tələbənin ÜOMG-si 61 və yuxarı olduğu halda, ona YDA formasının seçim hüququ verilir. Bütün digər hallarda YDA Dövlət İmtahanı formasında həyata keçirilir.

YDA-ya görə tələbənin toplaya biləcəyi balların maksimum miqdarı 100-ə bərabərdir.

Buraxılış işinin hazırlanması və tərtibinə görə 50, Dövlət Attestasiya Komissiyası qarşısında müdaiəsinə görə 50 bal verilir.

**Mübadilə proqramları**

UNEC tələbələrə aşağıdakı istiqamətlər üzrə xaricdə təhsil almaq imkanları təklif edir:

- Non-erasmus mübadilə proqramları
- “Erasmus+” beynəlxalq mübadilə proqramları
- “Mevlana” beynəlxalq mübadilə proqramları

Non-erasmus proqramının əsas şərtləri:
- xarici universitetə təhsil haqqı ödənilmir;
- tələbə yalnız yol və yaşayış xərclərini ödəyirr;
- bir və ya iki semestr təhsil almaq imkanı təklif olunur;
- yerlər üzrə müsabiqə keçirilmir;
- tələbələrin orta balı (ÜÖMG) 70-dən yuxarı olmalıdır;
- təhsil verilən xarici dildə sərbəst danlşıq qabiliyyəti (ingilis, fransız və ya alman);
- yalnız I, II və III kurslarda təhsil alan tələbələr iştirak edə bilər.



Tələbə ali təhsil müəssisəsini bitirmək üçün tələb olunan kreditləri ixtisasın normativ təhsil müddətindən sonrakı 3 ildə (həqiqi hərbi xidmət müddəti nəzərə alınmamaqla) toplaya bilmədiyi halda o, məzmununda əsaslı dəyişikliklər edilən peşə hazırlığı fənlərindən əvvəllər qazandığı kreditləri itirir. Tələbə həmin kreditləri tədrisin təşkili haqqında qaydaların tələblərinə uyğun olaraq yenidən yığmalıdır.

**Kredit sistemində tələbənin biliyi necə qiymətləndirilir?**

Biliyin qiymətləndirilməsinin çoxballı sistemi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təqdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında ƏSASNAMƏ” ilə tənzimlənir.

Biliyin qiymətləndirilməsinin çoxballı sistemi tələbələrin tədris fəaliyyəti nəticəsində əldə etdikləri bilik və bacarıqların qiymətləndirilməsinin yeni mexanizmidir.

Tələbənin hər bir fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı tələbənin semestr ərzindəki fəaliyyətə (cari qiymətləndirmə) , digər yarısı isə imtahanın nəticələrinə görə (aralıq) toplanır.

Balların maksimum miqdarının bölgüsü aşağıdakı kimi müəyyənləşdirilir:
- 50 bal imtahanın nəticəsinə görə;
- 10 bal dərslərə davamiyyətinə görə;
- 10 bal tələbənin sərbəst işinə görə;
- 20 bal seminar (məşğələ) dərslərinin nəticələrinə görə; (fənn üzrə seminar məşğələsi nəzərdə tutulmadığı halda 20 bal laboratoriya dərslərinin nəticələrinə əlavə edilir).
- 10 bal laboratoriya dərslərinin nəticələrinə görə; (fənn üzrə laboratoriya dərsləri nəzərdə tutulmadığı halda 10 bal seminar balına əlavə edilir).

Qrup jurnalında dərsdə iştirak etməyən tələbələrə həmin saata “q/b”, sorğulara cavab verənlərə müvafiq “bal”, dərsdə iştirak edən, lakin qiymət almayanlara isə “i/e” yazılmalıdır.

UNEC-də imtahanaqədərki və imtahan ballarının hesablanma qaydası aşağıdakı kimidir:

***Əyani təhsilalma forması üzrə***

- fənn üzrə davamiyyətə görə – 10 bal;
- sərbəst işlərə görə – 10 bal;
- I kollokvium – 10 bal;
- II kollokvium – 10 bal;
- III kollokvium – 10 bal (kollokviumun qiyməti semestr ərzində seminar məşğələlərində toplanan balların orta qiyməti alınaraq hesablanır);
- imtahanın nəticəsinə görə – 50 bal.

***QEYD:*** fənn üzrə laboratoriya işi nəzərdə tutulduğu halda, 20 bal I, II kollokviumlara və seminarın orta balına ayrılır.

## Fənn üzrə davamiyyətə görə ballar necə müəyyənləşdirilir?

Semestr ərzində fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır.

Dərsdə davamiyyətə görə verilən maksimum bal 10-dur. Balın miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:

- tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 10 bal verilir;
- semestr ərzində fənnin tədrisinə ayrılan saatların hər buraxılan tam 10%-nə 1 bal çıxılır.

## Sərbəst iş nədir və necə qiymətləndirilir?

Tələbənin sərbəst işinin növünü və formasını (fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim müəyyənləşdirir.

Ayrı-ayrı fənlər üzrə tələbəyə sərbəst işə görə verilən balın maksimum həddi 10-dur.

Fənni tədris edən müəllim tərəfindən sillabusda hər hənsı xüsusi forma müəyyən edilməmişdirsə, tələbəyə semestr ərzində hər fənn üzrə 4-cü tədris həftəsindən 14-cü həfətəyə qədər 10 sərbəst iş tapşırığı verilir.

Hər bir tapşırığın yerinə yetirilməsi 1 balla qiymətləndirilir.

Sərbəst işlərin həcmi 2-3 səhifədən artıq olmamaq şərti ilə əlyazma və ya çap şəklində ola bilər.

Sərbəst işlərin yoxlanılması və qəbulu müəllim tərəfindən dərsdən kənar vaxtda həyata keçirilir və növbəti semestrin əvvəlinə qədər hər bir fənn üzrə müvafiq kafedrada saxlanılır.

Həftə ərzində eyni fənn üzrə 1 sərbəst işdən artıq tapşırıq verilməsi qəti qadağandır.

## Kollokvium necə təşkil olunur və kollokvium balları necə hesablanır?

Kollokviumlar akademik təqvimə uyğun olaraq hər semestrdə 2 dəfə təşkil olunur. Hər kollokvium 10 bal ilə qiymətləndirilir. Seminar ballarının orta qiyməti 3-cü kollokvium qiyməti olaraq qəbul edilir. Seminar (məşğələ) dərslərində tələbənin jurnalda ən azı 3 dəfə qiyməti (kollokviumlar, frontal sorğular, praktiki məsələnin həlli və s.) olmalıdır. Əks təqdirdə tələbə seminara ayrılmış balı toplamamış hesab olunur.

Kollokviumda iştirak etməyən tələbəyə 0 bal yazılır.

## Seminar (məşğələ) və laboratoriya dərslərinin nəticələrinə görə bal necə hesablanır?

Fənlər üzrə seminar (məşğələ) və laboratoriya dərsləri tələbənin dərsi mənimsəməsini asanlaşdırmaq və praktik məsələlərin həllində vərdiş aşılamaq məqsədini daşıyır və bu növ tapşırıqların yerinə yetirilməsinə verilən balların maksimum həddi 10-dur. Eyni fəndən həm seminar (məşğələ), həm də laboratoriya dərsləri nəzərdə tutulduğu halda onların hər birinə 10 bal ayrılır.



Təqaüd almaq hüququnu qazanmış tələbələrə təqaüdlər semestr üzrə (birinci tədris ilinin birinci semestri istisna olmaqla) imtahan sessiyasının nəticələrinə əsasən fənlər üzrə göstəricilərinə görə aşağıdakı kimi müəyyənləşdirilir:

- fənlər üzrə göstəriciləri 91-100 bal olan tələbələrə "əlaçı" təqaüdü (bütün qiymətləri yalnız A);
- fənlər üzrə göstəriciləri 71-100 bal olan tələbələrə "həvəsləndirici" təqaüdü (bu halda ən azı bir fəndən akademik göstəricisi 91-100 olmalıdır (qiymətləri A,B,C));
- fənlər üzrə göstəriciləri 51-100 bal olan tələbələrə "adi" təqaüd (qiymətləri A,B,C,D,E).

Hər bir tədris ili üçün ixtisas üzrə təqaüd almaq hüququ olan tələbələrin siyahısında sıralamada sonuncu yerə bir neçə iddiaçı olduğu halda, birinci tədris ilinin ikinci semestrində ali təhsil müəssisəsinə qəbul imtahanından topladığı bal, sonrakı semestrlərdə isə əvvəlki semestrdəki ÜOMG-si yüksək olan tələbəyə üstünlük verilir.

Təqaüd almaq hüququ olan tələbələrin siyahısı müəyyənləşdirilərkən təqaüdlərin müəyyən olunmuş sayı müvəffəq qiymət alanların sayından çox olduğu halda, qalan təqaüd yerləri ali təhsil müəssisələrində fakültənin elmi şurasının qərarı ilə həmin kursun digər ixtisasları üzrə təhsil alan və həmin semestrdə ÜOMG-si yüksək olan tələbələrə növbəti semestrədək verilir.

Bakalavriat səviyyəsinə dövlət sifarişi ilə qəbul olunan, 600 və daha çox bal toplayan tələbələrə birinci tədris ilinin birinci semestrində "əlaçı", digər hallarda isə "adi" təqaüd verilir. V ixtisas qrupu üzrə dövlət sifarişi ilə qəbul olunan, imtahan verilən fənlər üzrə müəyyən olunmuş maksimal balın 85 faizini və daha çox bal toplayan tələbələrə birinci tədris ilinin birinci semestrində "əlaçı", digərlərinə isə "adi" təqaüd verilir.

Magistratura səviyyəsinə dövlət sifarişi ilə qəbul olunan, 112 və daha çox bal toplayan tələbələrə birinci tədris ilinin birinci semestrində "əlaçı", digər hallarda isə "adi" təqaüd verilir.

Dövlət hesabına və ödənişli əsaslarla təhsil alan, həmçinin ödənişli əsaslarla qəbul olub, lakin sonradan mövcud qanunvericiliyə uyğun olaraq dövlət sifarişi statusu almış, akademik göstəricilərinə görə təqaüd qazanmış və eyni ixtisas üzrə bir təhsil müəssisəsindən digərinə köçürülən tələbələrə təqaüd (tədris planlarındakı fənn fərqlərindən asılı olmayaraq) köçürüldüyü təhsil müəssisəsində həmin ixtisas üzrə təqaüd almaq hüququ olan tələbələrin siyahısına uyğun verilir.

Tələbə xaric olunduğu təqdirdə onun dayandırılmış təqaüdü həmin ixtisas üzrə ÜOMG sıralamasında növbəti yer tutan digər tələbəyə verilir.

- dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ali və orta ixtisas təhsili müəssisələrinin əyani formada təhsil alan tələbələrinə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricilərinə görə verilir;
- təqaüd əyani formada təhsil alan Azərbaycan Respublikasının vətəndaşlarına şamil edilir.
- təqaüd dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilir.
- tələbəyə təqaüdün verilməsi müəssisə tərəfindən yaradılan təqaüd komissiyasının təqdimatı əsasında müəssisə rəhbərinin əmri ilə həyata keçirilir.
- təqaüd ayda bir dəfə olmaqla, ixtisas üzrə təhsil proqramı ilə müəyyən edilmiş normativ müddətdə (bakalavryat - 4 il, magistratura – 2 il) ödənilir.
- təqaüdün verilməsi tələbə təhsil aldığı müəssisədən xaric olunduqda və ya akademik məzuniyyət götürdükdə (əmək qabiliyyətini müvəqqəti itirdikdə, hamiləlik və doğuşla bağlı hallar istisna olmaqla) dayandırılır.
- istehsalat təcrübəsi və tətil müddətlərində tələbə və şagirdlərin işləyib-işləməmələrindən asılı olmayaraq, təqaüd alma hüquqları saxlanılır.
- tələbələr üçün adlı təqaüdlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilir.

- Ali təhsil müəssisələrində hər tədris ili üçün ixtisaslar üzrə təqaüdlərin sayı həmin ixtisaslar üzrə dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayına bərabər qəbul edilir.

- Ali təhsil müəssisələrində qiyabi təhsilalma forması üzrə dövlət sifarişi və dövlət hesabına qəbul olmuş tələbəyə görə nəzərdə tutulan təqaüd yeri (yerləri) ikinci tədris semestrindən həmin ixtisas üzrə təqaüdlər sayına əlavə olunur.

Ali təhsil və orta ixtisas təhsili müəssisələrinə hər bir ixtisas üzrə təqaüdlərin sayı nəzərə alınmaqla, imtahan sessiyasının nəticələrinə əsasən ÜOMG-yə görə ən yüksəkdən başlayan sıralamaya uyğun növbəti semestrdə təqaüd alacaq tələbələrin siyahısı müəyyən edilir. Eyni tədris ili üzrə eyni ixtisasda təqaüd alacaq tələbələrin siyahısı müəyyənləşdirilərkən tədris dili nəzərə alınmır.



## İmtahan sessiyasının təşkili və keçirilməsi qaydaları

Hər tədris ilinin payız və yaz semestrlərinin sonunda 5 həftə ərzində imtahan sessiyası təşkil olunur. İmtahanların keçirləcəyi dəqiq tarixlər tədris ilinin əvvəlində təsdiq olunur və UNEC-in saytında (akademik təqvim) elan olunur.

UNEC-in Maliyyə və mühasibat, İqtisadiyyat, Biznes və menecment, Texnologiya və dizayn, Əmtəəşünaslıq fakültələri və Rus İqtisad Məktəbində (keçirilməsi yazılı formada nəzərdə tutulan fənlər istisna olmaqla) kollokvium və imtahanlar test üsulu ilə keçirilir.

Beynəlxalq İqtisadiyyat Məktəbi, SABAH Mərkəzi, Türk Dünyası İşlətmə fakültəsi, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, Magistratura Mərkəzi və UNEC Biznes Məktəbində (keçirilməsi test üsulu ilə nəzərdə tutulan fənlər istisna olmaqla) imtahanlar yazılı formada təşkil olunur.

Test üsulu ilə təşkil olunan imtahanlarda imtahanların başlamasına bir həftə qalmış hər fənn üzrə 700 sualdan ibarət test tapşırıqları tələbənin şəxsi kabinetinə göndərilir. İmtahan müddətində tələbəyə 700 sual içərisindən proqram təminatı tərəfindən seçilmiş 50 ixtiyari sual təqdim olunur. Hər doğru cavablandırılmış sual 1 bal ilə qiymətləndirilir. İmtahanın müddəti 1 saat 20 dəqiqədir. Bəzi fənlər üzrə (Ehtimal nəzəriyyəsi və riyazı analiz, Xətti cəbr, Ekonometrika və s.) müddət 2 saata qədər uzadıla bilər.

Yazılı formada təşkil olunan imtahanlarda 15 həftəlik dərsin hər bir mövzusundan 5 sual olmaqla 75 sual tələbələrin şəxsi kabinetlərinə göndərilir. İmtahan zamanı tələbələrə 5 sual təqdim olunur. Hər sualın maksimum dəyəri 10 baldır. İmtahan müddəti 2 saatdır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur və akademik borcu yaranmış olur.

İmtahan nəticələrinin qiymətləndirilməsindən və ya sualların (testlərin) tərtibatından narazılığı olan tələbələr 3 iş günü ərzində şəxsi kabinetlərindən apellyasiyaya müraciət edə bilərlər. Apellyasiya ərizəsinin yazılması haqqında yazılı və video təlimatla UNEC-in saytında yerləşdirilən "Elektron Universitet" bölməsində tanış ola bilərsiniz.

Üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələrə növbəti semestrin dərsləri başlanana qədər bir dəfə həmin imtahanı vermək imkanı yaradılır. Üzrsüz səbəbdən imtahanda iştirak etməyən tələbə fənn (fənlər) üzrə akademik borcu qalmış hesab olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2017-ci il tarixli 257 nömrəli qərarı ilə cari və aralıq qiymətləndirmənin nəticələrinə, habelə aralıq qiymətləndirmənin nəticəsinə görə, eləcə də üzrlü və ya üzrsüz səbəbdən imtahanda iştirak etmədiyinə görə akademik borcu yaranmış tələbəyə həmin fənn (fənlər) üzrə təkrar imtahan vermək və ya fənni (fənləri) yenidən dinləmək üçün şərait yaradılmalıdır.

Bu halda fənni (fənləri) yenidən dinləmədən kreditləri qazanmaq istəyən tələbə bu imkandan təhsil proqramı ilə müəyyən olunmuş müddət ərzində həmin fənn (fənlər) tədris olunduğu semestrdə (akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semestr başlayanadək və ya növbəti semestrin birində imtahan sessiyası zamanı) istifadə edə bilər.

Tələbə hər semestrdə fənni (fənləri) dinləmədən ümumilikdə iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) imtahanda iştirak edə bilər. Bu zaman tələbənin fənni (fənləri) dinlədiyi semestrdəki cari qiymətləndirilmənin nəticələri nəzərə alınır və onun qazandığı kreditlər tədris planı üzrə həmin fənni (fənləri) dinlədiyi semestrə aid olunur. Üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbə həmin fənn üzrə təkrar imtahan üçün ödəniş etmir, digər hallarda isə tələbənin imtahan üçün ödəniş haqqı, həmin fənn üçün müəyyən edilən məbləğin 25 faizi ödənilir. Bütün digər hallarda akademik borcu olan tələbə fənni yenidən dinləməli və həmin fəndən (fənlərdən) dərslərdə iştirak etməklə, onun (onların) mənimsənilməsinə qoyulan tələbləri tam yerinə yetirməlidir.

## Tələbəyə imtahanda nə qadağandır?

İmtahanın gedişində tələbəyə icazə verilmir:

- digər tələbələrlə danışmaq, onlara mane olmaq, imtahanda səs salmaq;
- kitabdan, mühazirə konspektlərindən və digər icazə verilməyən materiallardan istifadə etmək və köçürmək;
- imtahan biletini və cavab blanklarını təhvil vermədən imtahan zalını tərk etmək. imtahan zalına cib telefonu, kalkulyator, konspekt, qeydiyyat kitabçası, çanta və digər texniki vasitələri gətirmək;
- hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- intizamsızlıq göstərmək:
- zalda gəzişmək, yerini dəyişmək və ya kiminsə köməyindən istifadə etmək, kiməsə kömək etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq.

Göstərilən qaydalara əməl etməyən tələbə imtahandan xaric edilir və imtahanın nəticəsinə görə ona 0 bal müəyyənləşdirilir.



## ÜOMG nədir və necə hesablanır?

Tələbələrin tədris fəaliyyətini fəallaşdırmaq, onlar üçün özünənəzarət mexanizmini yaratmaq və tədrisdə əldə olunmuş nailiyyətlərini qiymətləndirmək məqsədilə ümumi orta müvəffəqiyyət göstəricisi (bundan sonra - ÜOMG) tətbiq edilir.

Ümumi orta müvəffəqiyyət göstəricisi fənlər üzrə toplanan balların həmin fənnə görə qazanılan kreditlərə hasilləri cəmlərinin tədris planında nəzərdə tutulan müvafiq kreditlərin cəminə olan nisbəti kimi müəyyənləşdirilir:

$$\text{ÜOMG} = \frac{b_1k_1^*+b_2k_2^*+b_3k_3^*+\ldots+b_nk_n^*}{k_1+k_2+k_3+\ldots+k_n}$$

$b_1, b_2, \ldots, b_n$ - tələbənin fənlər üzrə yığdığı ballar

$k_1, k_2, \ldots, k_n$ - fənlərə tədris planında nəzərdə tutulan müvafiq kreditlər

$k_1^*$, $k_2^*$,..., $k_3^*$ - fənlər üzrə qazanılmış kreditlər (əgər tələbə imtahandan müvəffəq qiymət almazsa o, krediti qazanmamış hesab edilir və bu əmsal 0 sıfr olur)

ÜOMG semestrlər üzrə artan istiqamətdə hesablanır (bir semestrin, iki semestrin, üç semestrin və s.)

## Təqaüdlər necə müəyyənləşdirilir?

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən ali təhsil müəssisələrində:

**adlı təqaüd alan tələbələrə** – 165 manat

**bakalavriat səviyyəsi üzrə:**

- akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 104,5 manat
- akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 88 manat
- akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 55 manat

**magistratura səviyyəsi üzrə:**

- akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 115,5manat
- akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 93,5 manat
- akademik göstəriciləri 51-100 bal olan tələbələrə –60,5 manat

təqaüd müəyənləşdirilir.

Təqaüdlərin təyin olunması və hesablanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş “Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi QAYDALARI” ilə tənzimlənir. Həmin qaydalara əsasən: